# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm**
**“Biznes və logistika” kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**09 sentyabr 2025-2026-cı tədris ili**

**“Menecment” fənni üzrə**

# İŞÇİ TƏDRIS PROQRAMI

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00031** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **Payız** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **476, 478, 480.** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ -30/30)** |
| **Kredit sayı:** | **7 (yeddi)** |
| **Kafedra:** | **Biznes və logistika** |

## II. Müəllim haqqında məlumat

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Quliyeva Şəfa (professor)** |
| **E-mail ünvanı:** | **shafa.guliyevaa@gmail.com** |
| **İş telefonu:** | **(012) 440-33-67** |
| **Tələbələr üçün qəbul vaxtları:** | **çərşənbə axşamı saat-10.00-12.00** |

Bu sillabus “Biznes və logistika” kafedrasının professoru, iqtisad elmlər doktoru Quliyeva Şəfa Tofiq qızı tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn Biznes səviyyəsində işgüzar təşkilatın idarə edilməsi sistemini öyrənir. Müasir dövrün qeyri-müəyyənliklərinə, gözləniməyən dəyişikliklərinə adekvat cavabın verilməsi menecerin təşkilatçılıq və uzaqgörənlik məharətindən asılıdır. Qloballaşma iqtisadi, sosial və digər prosesləri ildırım sürəti ilə yaymaqla müxtəlif ölkə iqtisadiyyatlarını daha sıx şəkildə bir-birinə bağlayır. Belə şəraitdə işgüzar təşkilatın fəaliyyət strategiyasının seçilməsi menecerin səriştəli, analitik təhlil etmə qabiliyyətli və kommunikabelli olmasını tələb edir. «Menecment» fənni məhz bu problemlərin həlli yollarını öyrənir.

«Menecment» idarəetmə münasibətlərini formalaşdıran və tənzimləyən idarəetmə prinsiplərini və dəyərini (ümumilikdə idarəetmə mədəniyyətini) araşdırır. O, təşkilatın daxili və xarici mühit amilləri arasında qarşılıqlı dinamika və münasibətləri müəyyənləşdirir. Menecment və ya idarəetmə işgüzar təşkilatın məqsədlərinə çatmaq üçün istifadə olunan metodları, o cümlədən iqtisadi, inzibati-sərəncam, sosial-psixoloji və ideoloji metodları və onların elementlərini öyrənir. Menecment fənni təşkilatın insan resurslarını, qrupları, kollektivi, kollektivdaxili dinamikanı, qrupun fəaliyyətinə təsir edən amilləri, kollektivdəki sosial-psixoloji mühiti araşdırır. Təşkilat rəhbərlərinin (liderin) əsas keyfiyyətləri, onların hakimiyyət mənbələri (resursları) və mexanizmləri, direktiv, demokratik və liberal kimi rəhbərlik üslubları menecment fənni tərəfindən tədqiq edilir. İstehsalın təşkili və idarə olunması, o cümlədən maliyyə, informasiya, texnoloji, material (xammal), insan resurslarının cəlb edilməsi və təşkili menecment sisteminə daxildir. Təşkilata, zaman baxımından menecmentin yanaşılmasına, qısa müddətli, orta müddətli və strateji idarə edilməsi aiddir. Bu fənn işgüzar təşkilatlarla yanaşı dövlət və bələdiyyə sahəsində idarəetmə münasibətlərinin və ona çatma vasitələrinin seçilməsi ilə yanaşı, bu prosesdə yaranan münaqişələrə, streslərə, dəyişikliklərə müqavimətini və onların idarə edilməsini öyrənir. Menecment qaydaları, normaları, dəyərləri, həmçinin təşkilatın strateji aləti olan təşkilati mədənyyətin mahiyyətini, təşkilat üçün onun əhəmiyyətini, sosial məsuliyyət məsələlərini də işıqlandırılır.

## IV. Kursun məqsədi və vəzifələri:

Menecment fənninin tədrisinin başlıca məqsədi tələbələrdə idarəçilik təfək-kürünü formalaşdırmaq və inkişaf etdirməkdir. Digər tərəfdən menecmentin keçdiyi tarixi dövrlər, elmi məktəblər, müxtəlif idarəetmə nəzəriyyələri,idarəetmə metodlrı və, funksiyaları, müasir təşkilati quruluş formaları, heyətin idarə edilməsi və s. haq-qında ətraflı biliklərə yiyələnməsinə nail olmaq əsas hədəflərdəndir. Eyni zamanda qeyri-standart və gözlənilməyən situasiyalarda yaradıcı qərarlar qəbul etmək, gələcək mütəxəssislərdə strateji və innovativ düşüncə tərzi formalaşdırmaq, dövlət və bələdiyyə idarəçiliyinin əsaslarına yiyələnmək, işgüzar ünsiyyət vərdişlərinə nail olmaq və s. bu fənnin tədrisinin mühüm məqsədlərindən sayılır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

-menecmentin iqtisadi mahiyyətini tam açıqlamaq və müasir dövrdə effektiv menecerə olan tələbləri tələbələrə tam izah etmək;

-idarəetmə nəzəriyyələri haqqında tələbələrə tam məlumat çatdırmaq;

-idarəetmə mexanizminin mahiyyətini və onun tərkib hissələrini- idarəetmə funksiyalarını, idarəetmə prinsiplərini və idarəetmə metodlarını geniş şəkildə tələbələrə izah etmək və düzgün rəhbərlik üslubunu tətbiq etməklə idarəetmənin effektivliyinin yüksəldilməsini tələbələrə izah etmək;

-düzgün strategiyanın işlənib hazırlanmasının və onun effektiv şəkildə həyata keçirilməsinin təşkilatlar üçün nə qədər önəmli olmasını və müxtəlf strategiyaların xüsusiyyətlərini geniş şəkildə təhlil edərək tələbələrə çatdırmaq;

-idarəçilik prosesində əlaqələndirici proseslərin effektivliyin yüksəlmək üçün həyata keçiriləcək tədbirləri tələbələrə izah etmək, kommunikativ səriştəliliyi yükəlmək üçün tövsiyyələrlə tələbələri tanış etmək, idarəetmə qərarlarının işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi prosesini genş şəkildə izah edərək tələbələrə çatdırmaq;

-antiböhranlı idarəetmə tədbirləri ilə tələbələri tanış etmək.

## V. Fənnin tədris metodologiyası.

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- idarəetmə nəzəriyyələrini;
- işgüzar təşkilaların növlərini və onların əsas xüsusiyyətlərini;
- təşkilatların fəaliyyətləinə təsir edən daxili və xarici mühit amillərini;

- təşkilati quruluşların növlərini və onların əsas növlərinin xarakterik xüsusiyyətlərini;
- idarəetmə mexanizminin tərkb hissələrini;
- müəssisələrin təşkilati formalarını;
- müasir təşkiatlarda istifadə olunan idarəetmə prinsiplərinin təsnifatını və idarəetmə funksiyalarınn qarşılıqlı əlaqəsini;
- təşklatların antiböhran siyasətinin əsas istiqamətlərini;
- strategiyaların əsas növlərinin xüsusyətlərini;
- liderliyin əsas nəzəriyələrini.

**Bacarmalıdırlar**:

- müxtəlif idarəetmə nəzəriyyələrində olan yanaşmaları fərqləndirməyi;
- təşkilatların fəaliyyətinə təsir göstərən amilləri qiymətləndirməyi;
- idarəetmənin təşkilati quruluşlarını təhlil etməyi və onların formalaşmasına təsir göstərən amilləri qiymətləndirməyi;
- rəhbərlik üslublarının formalaşmasına təsir göstərən amilləri təhlil edib qiymətləndirməyi;
- təşkilatların fəaliyyət strategiyalarını təhlil etməyi;

  konkret situasiyalarda münaqişələri həll etmək bacarığna malik olmağı.

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Menecmentin təşkkül tapması, predmeti, mahiyyəti və inkişafı.
2. Menecmentin elmi məktəbləri.
3. Menecmentin elmi məktəbləri (davamı).
4. Təşkilat-menecmentin obyekti kimi.
5. Menecmentin təşkilati formaları
6. Menecmentin təşkilati quruluşunun formalaşması və inkişafı.
7. Menecmentin prinsip və funksiyalarının tərkibi və qarşılıqlı əlaqəsi.
8. Menecmentdə motivasiya.
9. Strateji menecment.
10. Antiböhranlı idarəetmə.
11. İdarəetmə nəzarəti.
12. İdarəetmə qərarlarının işlənib hazırlanması, qəbul edilməsi və reallaşdırıması.
13. Menecment sistemində kommununikasiya.
14. Menecmentin milli xüsusiyyətləri.
15. Menecmentdə liderlik.

**IX. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (**unec.edu.az** ) yerləşdirilir.

**X. Əsas dərslik və dərs vəsaitləri**

**1.K.A. Şahbazov, M.H. Məmmədov, H.S. Həsənov. Menecment, dərslik. Bakı,2005**

**2. Ş.T.Quliyeva. Menecmentin əsasları. Bakı, 2017**

**3. Стивен П, Роббинс, Мэри Коултер Москва, 2004**

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | **Menecmentin təşəkkül tapması, predmeti, mahiyyəti və inkişafı.** | İdarəetmə və menecment anlayışları, menecer kimdir? Menecmentin predmeti. Menecmentin təkamülü. İdarəetmə əməyinin xarakteristikası. İdarəetmənin xarakteristikası. | **1 (**fəsil 1)<br>**2 (**fəsil 1)<br>**3 (fəsil 1,2,3)** |
| **2** | **Menecmentin elmi məktəbləri** | İdarəetədə yanaşmalar-proses halında yanaşma, sistem halında yanaşma, situasiyalı yanaşma, müxtəlif idarəetmə məktəblərinin idarəetmədə rolunun fərqləndirilməsi baxımından yanaşma. | **1** (fəsil 2)<br>**2** (fəsil 3)<br>**3** (fəsil 2) |
| **3** | **Menecmentin elmi məktəbləri(davam)** | Elmi idarəetmə məktəbi.Teylorun idarəetmədə rolu. Klassik idarəetmə məktəbi. Anri-Fayolun idarəetmədə rolu. Psixologiya və insan münasibətləri məktəbi.Davranış məktəbi.İdarəetmə elmi məktəbi. | **1 (**fəsil 2)<br>**2** (fəsil 3)<br>**3** (fəsil 2) |
| **4** | **Təşkilat-menecmentin obyekti kimi** | Təşkilat: iqtisadi mahiyyəti, növləri, xüsusiyyətləri.Təşkilatların həyat tsikli.Təşilatların fəaliyyətlərinə təsir göstərən amilər: daxil və xarici | **1** (fəsil 3)<br>**2** (fəsil 2)<br>3(fəsil 1) |
| **5** | **Menecmentin təşkilati formaları** | Dövlət müəssisələri.Təsərrüfat ortaqlıqları və cəmiyyətləri. Səhmdar cəmiyyətləri: açıq və qapalı səhmdar cəmiyyətləri. Məhdud məsuliyyətli cəmiyyət. Əlavə məsliyyətli cəmiyyət. Təşkilatların hüquqi və sosial məsuliyyəti. | **1** (fəsil 4)<br>**2** (fəsil 4 ) |
| **6** | **Menecmentin** | Təşkilati quruluş anlayışı. Təşkilati | **1** (fəsil 5) |

| | | | |
|---|---|---|---|
| | **təşkilati quruluşunun formalaması və inkişafı** | quruluşların formalaşması prinsipləri.Təşkilati quruluşlara olan tələblər. Xətti quruluş.Funksional quruluş. Xətti-funksional quruluş. Matris quruluşu. Divizional quruluş. | **2** (fəsil 5)<br>3 (fəsil 10) |
| 7 | **Menecmentin prinsip və funksiyalarının tərkibi və qarşılıqı əlaqəsi** | İdarəetmə prinsipi nədir? Müasir təşkilatlarda istifadə olunan idarəetmə prinsipləri: ümumi və xüsusi prinsiplər. Menecment funksiyalarının təsnifləşdirilməsi. | **1 (**fəsil 7,8,9,10)<br>**2** (fəsil 6,1)<br>3( fəsil 7,9,15,17,19) |
| 8 | **Menecmentdə motivasiya** | Motivasiya nədir? Məzmunlu və prosesual motivasiya nəzəriyyələri. A. Maslounun "Tələbatların iyerarxiyası "nəzəriyyəsi.Hersberqin "Iki amil" nəzəriyyəsi. Mak-Klellandın "Qazanılmış tələbatlar" nəzəriyyəsi. "Gözləmə nəzəriyyəsi". "Ədalətlilik nəzəriyyəsi." | **1** (fəsil 9)<br>**2** (fəsil 10)<br>**3** (fəsil 15) |
| 9 | **Strateji menecment** | Strategiya nədir? Strateji idarəetmənin mahiyyəti və vəzifələri.Strateji idarəetmənin əsas mərhələlərinin xarakteristikası. Missiya. Məqsəd: növləri, tələblər. Strategiyaların növləri. | **1** (fəsil 19)<br>**3** (fəsil 8) |
| 10 | **Antiböhranlı idarəetmə** | Böhran nədir? Böhranların növləri. İqtisadi böhranlar. Antiböhranlı idarəetmə -vəzifələri. Sanasiya. Yendənqurma. Müflisləşmə və iflas. Müflisləşmə əlamətləri. Müflişləşmənin iqtisadiyyatda rolu. | **1** (fəsil 23) |
| 11 | **İdarəetmə nəzarəti** | İdarəetmə nəzarəti: iqtisadi mahiyyəti və növləri. İlkin nəzarət. Cari nəzarət. Son nəzarət. Nəzarət prosesi, əsas mərhələləri. Effektiv nəzarətə olan tələblər. | 1(fəsil 10)<br>2(fəsil 6)<br>3( fəsil 17,19) |
| 12 | **İdarəetə qərarlarının işlənib hazırlanması, qəbul edilməsi və reallaşdırılası** | Əlaqələndirici proseslər. Qərar nədir, növləri. Qərarların qəbul edilməsi prosesinin əsas mərhələləri. Qərarlaın qəbul edilməsi metodları. Effektiv qərarlara olan tələblər. | **1** (fəsil 12)<br>2 (fəsil 7)<br>3( fəsil 6) |
| 13 | **Menecment sistemində kommunikasiya** | Kommunikasiya nədir? Şaquli və üfüqi, verbal və qeyri-verbal, formal və qeyri-formal komunikasiyalar. Kommunikasiya prosesi və | **1** (fəsil 11);<br>**2** (fəsil 9); |

| | | | |
|---|---|---|---|
| | | elementləri. Əks əlaqə. Kommunikativ maneələr.Təşkilati və şəxsiyyətlərarası kommunikasiya. | |
| 14 | **Menecmentin milli xüsusiyyətləri** | ABŞ menecmentinin xüsusiyyətləri. Yapon menecmentinin xüsusiyyətləri. Milli menecmentin xarakterik xüsusiyyətləri və dəyərləri. | **1 (**fəsil 25); |
| 15 | **Menecmentdə liderlik** | Rəhbər və lider. Liderin xüsusiyyətləri. Liderlik mədəniyyəti. Liderin effektiliyi. Deyl Karnegi-9 qayda. 6 əsas liderlik üslubu. | **1(fəsil 14)**<br>**3( fəsil 16)** |
| | **Yekun imtahan** | | |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Bütün ali məktəblərdə tələbələrin attestasiyası – Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında" Əsasnaməyə uyğun olaraq aparılır.

Tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Aralıq qiymətləndirmə**

Tələbənin aralıq imtahanındakı cavabı 0-30 bal aralığında (maksimum 30 bal) qiymətləndirilir.

**XV. Yekun imtahan**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada və test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları

yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVI. Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

## XVII. Fənn üzrə qiymətləndirmə

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **prof. Quliyeva Şəfa**